**AZƏRBAYCAN RESPUBLIKASI**

*Əlyazması hüququnda*

# XX ƏSR - XXI ƏSRIN ƏVVƏLİNDƏ AVROPADA MÜSƏLMAN SİYASİ FİKRİNİN TƏŞƏKKÜLÜ

| | |
|---|---|
| İxtisas: | 5502.01 – "Ümumi Tarix" |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Rauf Nazim oğlu Məmmədov** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2023**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor, akademik
**Nərgiz Çingiz qızı Axundova**

Rəsmi opponentlər: tarix elmləri doktoru, dosent
**Fərhad Rafiq oğlu Cabbarov**
tarix üzrə fəlsəfə doktoru, dosent
**Sitarə Oruc qızı Mustafayeva**
tarix üzrə fəlsəfə doktoru, dosent
**Mehriban Fəxrəddin qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: tarix elmləri doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya Şurasının katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: tarix elmləri doktoru, dosent
**Aida Rəhim qızı Bağırova**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University l.e.p.l.
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"22" 12 20 23

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünyanı səciyyələndirən əsas təmayülləri aşkara çıxararkən, müsəlman camiəsinin artan rolunu, dünya iqtisadiyyatının, siyasətinin, mədəniyyətinin formalaşmasında onun yerini və əhəmiyyətini nəzərə almaq lazımdır. Əgər Qərbdəki mövcud vəziyyətə nəzər salsaq, İslam dininin getdikcə daha çox maraq kəsb etdiyi qeyri-müsəlman regionlarında müsəlman icmasının təsirini görə bilərik. Çağdaş dünyamızın ən parlaq təzahürlərdən biri olan müsəlman sivilizasiyasında dirçəliş prosesləri qlobal inkişaf proseslərinə və hər bir ölkənin dövlət siyasətinin gələcəyinə birbaşa təsir göstərir. İslam dinində cəmiyyətin sosial tənzimlənməsi böyük əhəmiyyətə malikdir. Müsəlmanın həyatının demək olar ki, bütün aspektləri dini nöqteyi-nəzərdən önəmli hesab edilir. Bu, İslamın cəmiyyətdə və dünyada baş verən proseslərə hərtərəfli təsir göstərməsinə şərait yaradır ki, bu da müsəlmanların siyasi, iqtisadi, mədəni və digər sahələrdə təmərküzləşməsini, eləcə də onların dini icmasının müəyyən institusionallaşma səviyyəsinə malik birliyə çevrilməsini tələb edir.

İslamın müasir cəmiyyətin ictimai-siyasi həyatına və onun dünyagörüşü sferasına təsiri müsəlman cəmiyyətinin gələcək inkişafı problemlərinin öyrənilməsinin aktuallığını ön plana çıxarır. Bu kontekstdə İslam modernizmi xüsusi əhəmiyyət kəsb edir, çünki məhz bu ideoloji fenomen sayəsində ehtiyacı olan müsəlman cəmiyyətinin islahatına dair yeni yanaşmalar işlənib hazırlana bilər. Bu baxımdan XX və XXI əsrin əvvəllərində Qərbdə meydana çıxan islam modernizminin müxtəlif formaları müsəlman cəmiyyətinin gələcək inkişafının prinsipcə yeni formalarını nümayiş etdirmişdir.

“İslam modernizmi” termininin özü İslamın təməl qaynaqlarına qayıtmaq, habelə bu qaynaqları günümüzün şərtlərinə müvafiq şərh etmək və uyğunlaşdırmaq məqsədi daşıyan yeni bir diskursdur. İslam modernizminin iki mühüm nümayəndəsi Əl-Əfqani və Məhəmməd Əbdüh bu kontekstdə dinin bidət və xurafatdan təmizlənməsini, Quran və Sünnəyə müraciət olunmasını, təhsilə önəm verilməsini, ictihad qılınmasını, Quran və Sünnəyə uyğun olmayan təsəvvüf fikirlərindən

əl çəkilməsini, və nəhayət, Qərbin elm və texnologiyasının nəzərə alınmasını vacib hesab edirdilər.

İslam modernizminin əsas prinsiplərinin açıqlanması başlıca olaraq İslamın özünün fundamental əsaslarının dərk edilməsindən asılıdır, belə ki müsəlman dünyasında gedən modernləşmə prosesləri islamın ehkamçı müddəalarının anlaşılması üçün gərəkli əsasların formalaşmasına uyğun olaraq həyata keçirilir. Bununla əlaqədar olaraq, İslam dininin təməl problemlərinin, o cümlədən müsəlman cəmiyyətində modernizm problemlərinin öyrənilməsinə mühüm töhfə vermiş dünya alimlərinin araşdırmalarına diqqət yetirmək vacibdir. İslam dünyasındakı modernist proseslərin təhlili üçün praktiki təməli yaratmış Qərb islamşünaslarının və şərqşünaslarının əsərlərinin öyrənilməsi xüsusilə aktualdır. Bu baxımdan C. Kurtzman, P. Khudbhoy, E. Black, J. Cooper, K. Dalacourt, Olivier Roy və başqalarının əsərlərini qeyd etməliyik. [1] Sözügedən əsərlərində alimlər İslam dininin və onun müxtəlif cərəyanlarının yaranma və inkişaf tarixini, müasir şəraitdə müsəlman təlimlərinin inkişaf perspektivlərini, İslam modernləşməsinin müsəlmanların ictimai-siyasi və mənəvi həyatına təsirini və s. məsələləri hərtərəfli araşdırmışlar.

İslam modernizmi mövzusunda yazılmış elmi əsərləri iki qrupa bölmək olar. Birinci qrupu təkcə Misirdə deyil, bütün müsəlman Şərqində islam modernizminin yaranması və onun sonrakı inkişafının tədqiqinə yönəlmiş əsərlər təşkil edir. Müvafiq olaraq, tədqiqat dövrü əsasən XIX əsrin ikinci yarısı və XX əsrin birinci yarısını əhatə edir.

İkinci qrup Qərbdəki müasir müsəlman diasporları və Avropa

---

[1] Black, A. The History of Islamic Political Thought: from the Prophet to the present / A. Black. – Edinburgh: Edinburgh University Press Ltd., – 2001. – 380 p.; Cooper, John. The Limits of the Sacred: the Epistemology of ‘Abdolkarim Soroush // Islam and Modernity: Muslim Intellectuals Respond / Edited by John Cooper, Ronald L. Nettler, and Mohamed Mahmoud. – London and New York: I. B. Tauris, – 1998. – p.38-56; Dalacoura, K. Islam, Liberalism and Human Rights / K. Dalacoura. – London and New York: I.B.Tauris, – 2007. – 238 p.; Hoodbhoy, P. Islam and Science: Religious Orthodoxy and the Battle for Rationality / P. Hoodbhoy. – London: Zed Books, – 1991. – 172 p.; Roy, Olivier. Globalized Islam: The Search for a New Ummah / O. Roy. – New York: Columbia University Press, – 2004. – 349 p.

mədəni məkanında müsəlman ümməti kontekstində İslam modernizmi ideologiyası məsələlərinə həsr olunmuş tədqiqatlardan ibarətdir. Bu qrup mənbələrin tədqiqi dövrü XX əsrin ikinci yarısından bu günə kimi əhatə edir. Tədqiqatların birinci qrupunu İslam modernizminin birinci dalğasına mənsub Cəmaləddin əl-Əfqani, Məhəmməd Əbdüh və başqa ideoloqlarının əsərləri, həmçinin bu ideoloqların həyat və baxışlarına həsr olunmuş əsərlər təşkil edir. Bu qrupa 1972-ci ildə Los-Ancelesdə nəşr olunmuş K.Nikkinin Seyid Cəmaləddin Əl-Əfqaninin siyasi bioqrafiyasına dair əsəri, eləcə də K.Aminin "Yeni qadın", Məhəmməd Əbdühün "Vəhdətin teologiyası" ( (London, 1966), Cəmaləddin Əl-Əfqaninin "Urvət-ül-Vusqa" (Kabil, 1977) əsərləri və s. ilkin qaynaqlar daxildir.[2]

Əsərlərin növbəti qrupu Tariq Ramazan, Taha Cabir Əl-Əlvani, Əbdülkərim Soruş, Bassam Tibbi, Tariq Ubru, Əminə Vədud və başqa bu kimi müasir Avropa müsəlman ideoloqlarının qələmə aldığı monoqrafiyalardan, məqalələrdən və müsahibələrdən ibarətdir. Bu qrupa başlıca olaraq, Tarik Ramazanın "Peyğəmbərin izi ilə", "İslam və ərəb intibahı", "Avropa müsəlmanı olmaq", "Qərb müsəlmanları və İslamın gələcəyi" adlı elmi əsərləri, eləcə də digər ideoloqların – Əbdülvaahb Məddəbin "İslam xəstəliyi" (Paris, 2002) adlı əsərini, Əl-Əlvaninin "Azlıqların fiqhinə doğru" sanballı kitabını, Bassam Tibinin "İslamlaşmaq deyil, avropalılaşmaq", "Avropalılar öz dəyərlərini müdafiədən vaz keçmişlər" adlı məqalələrini, Udo Steynbaxın "Avro-İslam: bir söz, iki konsepsiya, çoxsaylı problem" məqaləsini (2005), Əbdülkərim Süruşun "Ənənəyə qayıdışın dolaşıq xəyalı" adlı müsahibəsini (2006) və digər əsərləri aid edə bilərik. [3]

---

[2] Амин, К. Новая женщина / К. Амин. – Санкт-Петербург: Тип. В. Ф. Киршбаума, – 1912. – [2], XVIII, 119, [2] с.; Keddie, Nikki R. Sayyid Jamal ad-Din 'Al-Afghani'. A Political Biography / N.R. Keddie. – Los Angeles: ACLS Humanities E-Book, – 1972. – 500 p.; Abduh, M. The Theology of Unity / M. Abduh. – London: George Allen & Unwin Ltd, – 1966. – 164 p.; Afghani, J. Urvat-ul-Vusqa, Asare –Sayyid Jamaluddin Afghani (in persian) / J. Afghani. Kabul: Beyhaqi, – 1977. – 248 p.

[3] Al-Alwani, Taha Jabir. Towards a Fiqh for Minorities / T.J. Al-Alwani. – London-Washington: The International Institute of Islamic Thouth, – 2013. –59 p.; Bassam, Tibi. Europeans Have Stopped Defending Their Values (interview): [Electronic resource] / – October 10, 2006. URL:

Bundan əlavə, İslam modernizminin inkişaf tarixi mövzusunu dövri mətbuatda araşdıran elmi əsərləri də qeyd etmək lazımdır. Bu mənbələr qrupuna R.R. Sikoyevin "Panislamizm. Qaynaqları və müasirlik" (2010), Cavad Mirinin redaktorluğu ilə Berdin "Əli Şəriəti və sosial nəzəriyyənin gələcəyi: din, inqilab və intellektualların rolu". (2018), K. Dalakurun "İslam, liberalizm və insan hüquqları" (2007), Adis Duderianın "İslam və Qərbdə müsəlmanlar: əsas problemlər və debatlar", Linyakumpu Ayninin "Qloballaşan dünyada siyasi İslam" və ümumən İslamda modernist cərəyanların inkişaf tarixini araşdıran digər əsərlər daxildir.[4]

Azərbaycan alimləri də müsəlman icmasının müxtəlif aspektlərini, İslam modernizmini və müasir İslamdaxili prosesləri öyrənən mühüm tədqiqatlar aparmışlar. Onların arasında

---

https://www.subsim.com/radioroom/showthread.php?t=98935; Ramadan, T. To be a European Muslim / T. Ramadan. – Leicester: The Islamic Foundation, – 2015. – 289 p. Ramadan, T. Western Muslims and the Future of Islam / T. Ramadan. – Oxford: Oxford University Press, 2004 –272 p.; The Muddled Dream of Returning to Tradition. An interview with Abdulkarim Soroush. November 2006: [Electronic resource] / – December, 2020. URL: http://www.drsoroush.com/English/Interviews/E-INT-The%20Muddled%20Dream%20of%20Returning%20to%20Tradition.html; Wadud, A. Inside The Gender Jihad: Women's Reform in Islam (Islam in the Twenty-First Century) / A. Wadud. – London: Publisher One World Publications, – 2006. – 325 p.; Oubrou, Tareq. Les musulmans doivent s'adapter à la société française: [Ressource électronique] / L'Express, interview 2012. – September, 2022. URL: https://www.lexpress.fr/societe/religion/les-musulmans-doivent-s-adapter-a-la-societe-francaise_1184813.html https://www.lexpress.fr/actualite/societe/religion/; The Muddled Dream of Returning to Tradition. An interview with Abdulkarim Soroush. November 2006: [Electronic resource] / – December, 2020. URL: http://www.drsoroush.com/English/Interviews/E-INT-The%20Muddled%20Dream%20of%20Returning%20to%20Tradition.html

[4] Сикоев, Р.Р. Панисламизм: истоки и современность: Джамалуддин Афгани и его религиозно-политические последователи XX-начала XXI века / Р.Р. Сикоев. – Москва: Аспект Пресс, – 2010. – 286 с.; Ali Shariati and the Future of Social Theory: Religion, Revolution, and the Role of the Intellectual / D.J. Byrd, Javad Miri S. (ed.). – Leiden-Boston: Brill, 2018. – 300 p.; Duderija, A. Islam and Muslims in the West: Major Issues and Debates / A. Duderija, H. Rane. – London: Palgrave Macmillan, – 2019. – 267 p.; Linjakumpu, A. Political islam in the Globalized World / A. Linjakumpu. – Reading, UK: Ithaca Press, – 2008. – 222 p.

Ə.Fərhadovun "Şimali Azərbaycanda islam maarifçiliyi hərəkatı (XIX – XX əsrin əvvəlləri)", R.Mürsəlovun "Müasir islamdaxili proseslər: Misir mütəfəkkirlərinin təhlili əsasında", M.Səttarovun "İslam dinində modernizasiya" monoqrafiyalarını, İ.Xəlilovun redaktəsində "Dünya dinləri. Dünya xalqlarının tarixində din: Ensiklopedik məlumat kitabı"nı, M.Həmidovanın "Azərbaycanda İslam və modernizm münasibətlərin gender aspektləri", S. Həsənovanın "XIX-XXI əsrlər İslam fəlsəfəsi və modernizm", Q.Mustafayevin "İslamın modernizasiyası", M.Şəkixanovanın "İslam modernizmi: cədidizmin genezisinə tarixi-fəlsəfi baxış" məqalələrini, habelə müəllifləri arasınd, İ. Bağırov və Ş. Rəhmanzadənin də yer aldığı "Mərkəzi Asiya və Qafqazda ictimai-mədəni islahatçılıq tarixi (XIX – XX əsrin əvvəlləri)" adlı kollektiv monoqrafiyanı və s. göstərmək mümkündür.[5]

Qərbdəki müasir müsəlman icmaları üçün belə bir cəhət səciyyəvidir ki, təxminən 1990-cı illərdən başlayaraq Avropa müsəlmanlarının gənc nəslinin əhəmiyyətli bir hissəsi arasında İslam özünüidentikləşdirmə vasitəsi kimi ön plana çıxmışdır, halbuki 1950-1960-cı illərdə, yəni kütləvi köçün ilk dalğalarının baş verdiyi dönəmlərdə müsəlman cəmiyyətlərində dini deyil, milli kimlik üstünlük təşkil edirdi. Bu məqam, şübhəsiz ki, özünüidentikləşdirmə

---

[5] Fərhadov, Ə. Şimali Azərbaycanda islam maarifçiliyi hərəkatı (XIX - XX əsrin əvvəlləri) / Ə. Fərhadov. – Bakı: [n.y.], – 2017. – 304 s.; Həmidova, M. Azərbaycanda islam və modernizm münasibətlərinin gender aspektləri // Bakı: Geostrategiya: aylıq ictimai-siyasi, elmi-populyar jurnal, – 2014, № 03 (21), May-İyun. – s. 43-47; Həsənova, S. XIX-XXI əsrlər İslam fəlsəfəsi və modernizm // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, – 2012, № 1, – s. 253-263; Dünya dinləri. Dünya xalqlarının tarixində din: Ensiklopedik məlumat kitabı / Baş red.: İ. Xəlilov. – Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, – 2003. – 548 s.; Mustafayev, Q. İslamın modernizasiyası // Bakı: S.M.Kirov ad. Azərbaycan Dövlət Universitetinin Elmi Əsərləri, Tarix və fəlsəfə seriyası, – 1976, № 4, – s. 58-66; Mürsəlov, R. Müasir islamdaxili proseslər: Misir mütəfəkkirlərinin düşüncələrinin təhlili əsasında / R. Mürsəlov. – Bakı: Bakı Çap Evi, – 2010. – 272 s.; Səttarov, M. İslam dinində modernizasiya / M.Səttarov. – Bakı: Azərnəşr, – 1971. – 39 s.; Şəkixanova, M. İslam modernizmi: cədidizmin genezisinə tarixi-fəlsəfi baxış // Bakı: Dövlət və din, – 2016, № 3 (44), – s. 61-68; История общественно-культурного реформаторства в Центральной Азии и на Кавказе (XIX – начало XX века) / Абдуллаев Р., Алимова Д., Багирова И. [и др.] – Самарканд: МИЦАИ, – 2012. – 335 с.

məsələsinin geniş müzakirə olunduğu bu günkü İslam modernizminin gündəminə də təsir edir. Bu problemlərin öyrənilməsi bu mövzunun aktuallığını bir daha şərtləndirir.

İslam modernizminin inkişafını bir neçə dövrə bölmək olar: 1) XIX əsrin birinci yarısından XX əsrin birinci yarısına qədər həmçinin "ərəb intibahı" deyə adlandırılan dövr. Bu dövr müsəlman dünyasında parlament demokratiyasını müdafiə edən Məhəmməd Əbdüh və bu qəbil başqa İslam din xadimlərinin meydana çıxması və bunun nəticəsində bəzi müsəlman ölkələrində konstitusiya hərəkatlarının qələbəsi ilə əlamətdar oldu; 2) 1980-ci illərdə, artıq qlobal İslamın iki – mötədil və radikal şaxələrə bölündüyü bir zaman Avropada kimlik problemi ilə üzləşmiş ikinci nəsil müsəlman mühacirləri arasında fəallaşan müasir intibahçılıq; 3) 2000-ci illərdən bu günə qədər olan dövr – Avropada üçüncü nəsil Avropa müsəlmanlarının formalaşdığı dönəm; bu zaman müsəlman diasporu artıq bəzi aparıcı Avropa ölkələrində siyasi əhəmiyyətli qrupa çevrilmişdir.

Müasir dünyanı bürümüş kütləvi miqrasiya prosesləri fonunda mədəniyyətlərarası və dinlərarası münasibətlər məsələsində müsəlman ölkələrindən kənarda yaşayan müsəlman icmaları problemi getdikcə daha mühüm yer tutur. Avropadan fərqli olan öz dəyərlərinə, öz dünyagörüşünə malik nəhəng sayda insanın kütləvi axını inkişaf etmiş demokratik ölkələrin əksəriyyəti üçün əsl problemə çevrilmiş və Böyük Britaniya, Fransa, Almaniya kimi bir sıra aparıcı dövlətlər tərəfindən cəmiyyətin inkişafının multikultural modelinin böhranının tanınmasına gətirib çıxarmışdır; bu böhran həmin ölkələrdə inteqrasiyası çətin olan və ya ümumiyyətlə inteqrasiya olunmayan böyük etnik və dini icmaların meydana çıxması ilə əlamətdardır.

İstər müsəlman, istərsə də Qərb ölkələrində bir çox müsəlman alimi multikultural modelin böhranının və müasir müsəlman icmalarının üzləşdiyi digər problemlərin çözümünü modernist islahatçılıqda görürlər. Bu gün müsəlman ölkələrində modernizm və bununla bağlı islahatçı hərəkat mövzusunun aktuallığı müsəlman dünyasının Qərbdən geri qalması problemi və bu problemin həlli yolları kimi geniş çərçivədə nəzərdən keçirilir. Ən aktual və kəskin inteqrasiya problemi ilə üzləşən Qərb müsəlmanları arasında isə müsəlman kimliyini qoruyacaq şəkildə müsəlmanların qeyri-

müsəlman Qərb cəmiyyətinə inteqrasiyası gündəmi üstünlük təşkil edir.

**Tədqiqatın obyekti** Qərbdəki müsəlman icmaları və müsəlman alimləri, eləcə də modernist baxışlı müsəlman alimləridir.

**Tədqiqatın predmeti** isə Avropa multikulturalizmi böhranının çözüm yollarının islam reformizmi prizmasından axtarılmasıdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Bu dissertasiyanın məqsədi onun ən aktual mövzularını üzə çıxarmaqla, Qərbdə XX əsrin sonu – XXI əsrin əvvəllərində çağdaş İslam modernizminin əsas tendensiyalarını araşdırmaq təşkil edir; bu zaman müasir Qərb İslam modernizmi ilə XIX əsr İslam modernizmi arasında tarixi əlaqələr təsbit olunur.

Tədqiqatın məqsədindən irəli gələn əsas vəzifələr aşağıdakılardır:

- Erkən tarixi mərhələlərdə həm sünni, həm də şiə ənənələrində İslam modernizminin meydana gəlməsinin və formalaşmasının tarixi zəmininin öyrənilməsi;
- XIX əsr İslam modernizminin əsas məqamlarını və onun müasir modernist ideyaları ilə əlaqəsinin müəyyənləşdirilməsi;
- İslamda modernizm və ənənəvi islahatçılıq xüsusiyyətlərinin fərqlərinin aşkara çıxarılması;
- Ən iri Avropa ölkələrində müsəlman icmalarının formalaşması prosesinin onların hər birinin xüsusiyyətlərinin üzə çıxararaq, öyrənilməsi;
- Avropa ölkələrindəki müsəlman təşkilatlarının, eləcə də ən nüfuzlu müasir Qərb müsəlman modernistlərinin ideyalarının nəzərdən keçirilməsi;
- İslamda qadın məsələsinin tarixi nəzər nöqtəsindən və İslam modernizmi mövqeyindən araşdırılması;
- Qlobal siyasi İslamın mötədil və radikal istiqamətlərə bölünməsinin tarixi prosesinin araşdırılması;
-Müsəlman Şərqinin Qərbdən geri qalmasının obyektiv tarixi səbəblərinin araşdırılması və demokratik cəmiyyətlərin multikultural inkişaf modelinin böhranından çıxış yollarının axtarılması.

**Tədqiqat metodları.** Dissertasiya işində irəli sürülən problemlər nəzərdən keçirilərkən Qərbdə müsəlman diasporlarının

formalaşması tarixi prosesinin müasir İslam modernizminə təsirini araşdırmağa imkan verən müqayisəli-tarixi və tarixi-genetik üsullardan istifadə edilmişdir. Dissertasiyada həmçinin Qərbi Avropanın aparıcı ölkələrində müsəlman icmalarının və onlara münasibətdə yürüdülən siyasətlərin müqayisəli qarşılaşdırılması aparılmışdır. Tədqiqatın metodoloji əsası kimi tarixilik və elmi obyektivlik prinsipləri götürülmüşdür. Bu prinsiplər müsəlman modernizminin yaranması və inkişafı prosesini, habelə mövcud durumunu çağdaş tarix elminin fənlərarası yanaşması çərçivəsində nəzərdən keçirməyə imkan verir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Müsəlman modernizminin əsas anlayışlarını aşkara çıxarmaq məqsədilə müsəman modernizmi probleminin kompleks araşdırılması zəruridir.

2. Müasir modernistlərin baxışları yetərincə təsnif olunmamışdır. Aparılmış səthi ümumiləşdirmələr nəticəsində çox vaxt "Avro-İslam"ın eyni təsnifatına fərqli ideoloji cərəyanlar düşür və dolaşıqlıq yaradır;

3. İslamın fundamental dəyərlərini və dini universalizmini nəzərə alaraq, XIX və XX əsrlərdə İslamda modernist proseslərin təkamülünün əsas xüsusiyyətlərini və meyllərini üzə çıxarmaq vacibdir;

4. XIX əsrdə və XX əsrin əvvəllərində Qərb cəmiyyətində geniş vüsət almış İslam modernizminin əsas fəaliyyət istiqamətlərinin sosial, iqtisadi, siyasi, mədəni və ideoloji xüsusiyyətlərinin öyrənilməsi Avropada və Amerikada İslam intellektual fikrinin aparıcı nümayəndələrinin ideyalarını təhlil etməyə kömək edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- xarici ədəbiyyatda İslam modernizmi konsepsiyasının hərtərəfli öyrənilməsinə cəhd edilmişdir, beləki elmi çevrələrdə liberal İslam", "Avro-İslam" və "İslam modernizmi" kimi anlayışlar arasında hələ də dolaşıqlıq mövcuddur;

- XIX əsrdə Qərbdə İslam modernizminin meydana gəldiyi dövr, eləcə də XX-XXI əsrlərdə müsəlman cəmiyyətinin bir çox müasir ideyalarına təsir göstərmiş dönəm tədqiq edilmişdir.;

- Müasir Qərb cəmiyyətində İslam modernizminin yeri və rolu

müəyyənləşdirilmişdir;

- Müsəlman cəmiyyətinin hazırkı durumunun təhlili aparılmış və qloballaşma şəraitində insanın özünü mənəvi varlıq kimi identifikasiyasının dəstəklənməsi prinsipləri xülasə edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** işin yeniliyi ilə sıx bağlıdır. Dissertasiya tədqiqatında əldə edilən nəticə və müddəalar müsəlman cəmiyyətinin problemlərinin nəzəri cəhətdən mənalandırılmasını ehtiva edir. Əsərin praktiki əhəmiyyəti ondan ibarətdir ki, onu təkcə müasir cəmiyyətin sosial-mədəni və etnik-dini problemləri ilə məşğul olan mütəxəssislərə deyil, həmçinin müsəlman düşüncəsinin yeni tarixi ilə maraqlanan geniş oxucu kütləsinə ünvanlamaq olar. Bundan əlavə, bu tədqiqat etniklərarası və dinlərarası münaqişələrin problemlərinin çözümü ilə birbaşa məşğul olan praktik sahələrdə çalışan işçilər üçün də faydalı ola bilər.

Dissertasiyanın müddəalarının universitet tələbələrinə humanitar fənlərin öyrənilməsində əhəmiyyətli yardım göstərməyindən əlavə, onlardan fəlsəfə, dinşünaslıq, mədəniyyət nəzəriyyəsi və tarixi və s. kursların hazırlanmasında və oxunmasında da istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları Azərbaycanda və xaricdə bir sıra elmi jurnallarda dərc olunmuş elmi məqalələrdə, respublika və beynəlxalq elmi-nəzəri konfransların məruzə və tezislərində öz əksini tapmışdır. Müəllifin dissertasiya mövzusu üzrə 12 elmi məqaləsi, onlardan 6-sı xarici elmi jurnallarda dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya akademik Z.M. Bünyatov adına AMEA Şərqşünaslıq İnstitutunun "Şərq-Qərb" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işinin strukturu girişdən, 7 paraqrafa bölünmüş 3 fəsildən, nəticədən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş - 14203, birinci fəsil - 49994, ikinci fəsil - 90329, üçüncü fəsil - 73862, "Nəticə" hissəsi – 9047 işarədən ibarətdir. Dissertasiya işinin ümumi həcmi 237435 işarədir.

## II.DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Giriş**"ində tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, problemin elmi işlənmə dərəcəsi təhlil edilir, predmet, məqsəd və vəzifələr, habelə tədqiqat metodları müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, müdafiə üçün irəli sürülən əsas müddəalar, habelə işin aprobasiyası göstərilir.

**"İslam modernizminin tarixi ilkin şərtləri"** adlı **I fəsil** iki paraqrafdan ibarətdir. "**XIX-XX əsrlərdə müsəlman modernizminin meydana gəlməsi və təşəkkülü**" adlı birinci paraqrafda İslam modernizmi anlayışı açılır və modernist cərəyanların meydana gəlməsinə gətirib çıxarmış tarixi ilkin şərtlər təhlil edilir.

Qaynaqlarının hələ XIX əsrin 20-ci illərdə Məhəmməd Əlinin Misirdə apardığı islahatlardan izləyə bildiyimiz İslam modernizminin meydana çıxması tarixən yaranmış zərurətə reaksiyadan başqa bir şey deyil.

XIX əsrin birinci yarısında başlanan modernist hərəkat sayəsində XIX əsrin sonu və XX əsrin əvvəllərində bir sıra müsəlman ölkələrində Avropa tipli konstitusiya islahatları aparılsa da, bu ölkələrin çoxunda bəzi səbəblərə görə bu islahatların labüd və məntiqi davamı gəlməmişdi. Birinci Dünya müharibəsinin yekunlarına görə müsəlmanların məskunlaşdığı ərazilərin əhəmiyyətli hissəsinin müstəmləkə vəziyyətinə düşməsi, sonralar bu ərazilərin uzun müddət sosialist və Qərb düşərgələri arasında nüfuz uğrunda kəskin mübarizənin getdiyi meydana çevrilməsi bu regionlarda sabit siyasi sistemin yaradılmasına əsla yardım etmirdi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində əsas müsəlman islahatçıları Cəmaləddin əl-Əfqani [6] və onun şagirdi Məhəmməd Əbdüh [7] hesab olunur. D.Əfqani və M.Əbdüh ənənəvi cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinin Qərbin mütərəqqi nailiyyətləri ilə ahəngdar birləşməsi lehinə çıxış edən mötədil islahatçı idilər ki, bu da onların baxışlarının ən güclü tərəfi idi. Onlar həmin dövrdə Qərbin

[6] Keddie, Nikki R. Sayyid Jamal ad-Din 'Al-Afghani'. A Political Biography / N.R. Keddie. – Los Angeles: ACLS Humanities E-Book, – 1972. – 500 p.

[7] Abduh, M. The Theology of Unity / M. Abduh. – London: George Allen & Unwin Ltd, – 1966. – 164 p.

qabaqcıl ölkələrindən xeyli geri qalan müsəlman xalqlarının öz sivilizasiya kimliyinə arxalanmaqla, bu xalqların ictimai və mədəni varlığının bütün sahələrinin modernləşməsinə tərəfdar idilər. İlk növbədə, cəmiyyətin müəyyən sahələrində - ənənəvi təhsil və elm sistemində, sənayenin, o cümlədən hərbi sənayenin inkişafı, dövlət idarəetmə aparatının müasirləşdirilməsi istiqamətlərində islahatlar aparılmalına çağırırdılar.

"**Qərbi Avropa ölkələrində müsəlman icmalarının formalaşmasının əsas ilkin zəmini və tarixi şərtləri**" adlı ikinci paraqrafda Qərb ölkələrində müsəlman icmalarının formalaşmasının ilkin şərtləri və tarixi mərhələləri tədqiq edilir. XX əsrdə Avropanın sənaye sıçrayışı üçüncü dünya adlanan ölkələrdən ucuz işçi qüvvəsinin kütləvi miqrasiyasına təkan verdi, bunun nəticəsində inkişaf etmiş Avropa ölkələrində diasporlar formalaşmağa başladı. Məhz ənənəvi müsəlman arealından olan insanlardan ibarət bu diasporlar İslamın qloballaşmasının aparıcı qüvvəsi kimi çıxış edir.

Müsəlman miqrantların Britaniyaya əsas axını XX əsrin ortalarında İkinci Dünya müharibəsindən sonraya təəsadüf edir. Məhz həmin vaxtlar Britaniyaya miqrant işçilərin kütləvi şəkildə gətirilməsinə start verildi. 1948-ci il Britaniya təbəəliyi haqqında Qanuna əsasən, Birlik ölkələrinin sakinləri Britaniyaya sərbəst gələ bilərdilər. O vaxtdan bəri Britaniyada müsəlmanların sayı kəskin şəkildə artdı.

Almaniyaya gəlincə, 1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərində alman iqtisadiyyatının müharibədən sonrakı yüksəlişi və işçi qüvvəsinin çatışmazlığı Cənubi Avropa ölkələrindən, o cümlədən o dövrdə çətin sosial-iqtisadi vəziyyətdə olan Türkiyədən səriştəsiz işçi qüvvəsinin əmək bazarına dəvət edilməsinə və ardından immiqrasiyasına səbəb oldu.[8] Almaniya ilə Türkiyə arasında əmək münasibətlərinin başlanğıcı Almaniyanın ilk federal kansleri K.Adenauerin (1949-1963) hakimiyyəti dövrünə təsadüf edir. Şlezviq-Holşteyn əyalətinin Əmək Nazirliyi ilə Türkiyə Xarici İşlər Nazirliyi arasında müqavilənin imzalanması 1957-ci ilin aprelində onlarla türk

[8] Садыкова, Л.Р. Мусульманские сообщества в Великобритании, Германии и Франции: проблема адаптации в принимающих странах: / дис. канд. ист. наук / – Москва, 2015. – с.64

fəhlənin Kil şəhərinə gəlməsinə təkan verdi.

Hazırda Avropanın sayca ən böyük müsəlman diasporu Fransa da cəmləşmişdir ki, onun da təxminən 82%-ni Məqrib ölkələrindən çıxmışlar təşkil edir. Belə bir mətləbi də anlamalıyıq ki, tarixi baxımdan Afrikadan və Asiyadan Avropaya miqrasiya dalğalarının birbaşa səbəbi iki amillə əlaqəlidir. Bunlar metropoliya ölkələri ilə onların keçmiş müstəmləkələri arasında tarixən təşəkkül tapmış əlaqələr, eləcə də sonuncuların ən yeni tarixini müşayiət edən ümumi işsizlik və silahlı münaqişələr kimi sosial-iqtisadi və siyasi sferalarda böhranlı hadisələrdir.

Dissertasiyada həmçinin qeyd olunur ki, məhz Avropada müsəlman hüququnda yeni cərəyan – hüquqşünaslıqda "azlıq hüququ" adlanan hüquq meydana çıxır. Bu, qeyri-müsəlman mühitində azlıq qismində yaşayan müsəlmanlar üçün xüsusi olaraq hazırlanmış dini-hüquqi sistem və ideologiyadır.

"**Qərbdə İslam modernizminin genezisi**" adlı **ikinci fəsildə** müəllif müsəlmanların Avropa ölkələrinə miqrasiyasının tarixi mərhələsini öyrənmiş, "liberal İslam" və "Avro-İslam" anlayışlarını sintez etmiş, habelə Avropada və Amerikada islam intellektual fikrinin əsas nümayəndələrinin ideyalarını təhlil etmişdir..

"**1950-ci illərin əvvəllərindən Avropa ölkələrinə müsəlman miqrasiyasının artması və onların Avropa birliyinə inteqrasiyası problemi**" adlı birinci paraqrafda müəllif XX əsrin 50-ci illərindən başlayaraq Avropaya müsəlman immiqrasiya axınının əsas məqamlarını araşdırır. Müəllif orada sözügedən dövrdən başlayaraq Avropa ölkələrinə müsəlman miqrasiyasının artması və onların Avropa İttifaqına inteqrasiyası problemlərinin öyrənilməsini xüsusi vurğulayır. Qeyd olunur ki, Avropanın ümumi əhalisinin 1950-ci ildəki 548 milyondan 2022-ci ilə doğru 750 milyona qədər yüksələcəyi proqnozlaşdırılırdı, öz növbəsində, eyni hesablamalara görə Avropada müsəlman əhalinin faizi 1950-ci ildəki 2 faizdən 2022-ci ildə 7 faizə yüksəlmişdi.[9]

Dissertasiyada Bolqarıstan hökumətinin ölkə türk əhalisinin zorakı assimilyasiyasını və ya miqrasiyasını təşviq etmək məqsədi

[9] Счетчик населения Европы: [Электронный ресурс] / – Январь, 2023 г. URL: https://countrymeters.info/ru/Europe

daşıyan ayrı-seçkilik siyasəti ətraflı surətdə araşdırılır. Qeyd edilir ki, kampaniya gedişində türklərə ictimai yerlərdə doğma dildə danışmaq, milli geyim daşımaq, dini bayramları qeyd etmək və s. yasaqlanmışdı. [10] "Dirçəliş prosesi" adlanan assimilyasiya kampaniyası o vaxt Bolqarıstanda mövcud olan belə bir doktrinaya əsaslanırdı ki, bütün bolqar türkləri guya bir vaxtlar Osmanlı boyunduruğu dönəmlərində zorla İslamı qəbul etmiş bolqarlardır. Dissertasiyada həmçinin belə bir məqam da vurğulanır ki, Balkanların yerli müsəlmanları bu və ya digər şəkildə həm keçmişdə Osmanlı İmperiyasına, həm də indiki Türkiyəyə bağlıdırlar ki, bu da həmin ölkələrin müsəlman əhalisinin bir növ yadcinsli ünsür kimi qavranılmalarına gətirib çıxarır.

İkinci Dünya müharibəsindən sonra Qərbi, Mərkəzi və Şimali Avropa ölkələrində müsəlman əhalinin faizində böyük artım müşahidə olunmaqdadır ki, bu da öz vətənlərindəki iqtisadi və siyasi qeyri-sabitlik səbəbindən köçkünlərin sözügedən ölkələrə axını ilə bağlıdır. Bu gün də Avropanın müsəlman əhalisinin əsas hissəsini 1950-ci illərdən başlayaraq oraya gəlmiş mühacirlər və onların nəsilləri təşkil edir. Bir çox keçmiş müstəmləkə imperiyası da post-müstəmləkə immiqrasiyasına məruz qalmışdır. Əksər ölkələrdə müsəlman icmaları çoxsaylı nəsillərdən ibarətdir və "immiqrant" termininin istifadəsi getdikcə daha çox mübahisə doğurur. Məsələn, Britaniyada artıq "immiqrant" ifadəsi işlədilmir, əvəzinə "etnik azlıq" ifadəsindən istifadə olunur.

Bir çox hallarda milli kimlik onun yalnız bir hissəsi olan müsəlman kimliyindən üstün olur. Avropada müsəlmanların hətta ikinci və ya üçüncü nəslinin belə sırf müsəlman kimliyinə söykənən hər hansı bir fövqəlmilli toplum (Avropa müsəlman milləti) formalaşdırmaması buna sübutdur.

Bu fəslin "**Liberal İslam**" **və "Avro-İslam" anlayışlarının yaranması və onların İslam modernizmi ilə tarixi əlaqəsi**" adlı ikinci paraqrafında müəllif bu fenomenlərin önəmli cəhətlərini vurğulamış və onları ətraflı araşdırmışdır.

---

[10] Баева, И. Истината за «възродителния процес». Документи от архива на Политбюро и ЦК на БКП / И. Баева, Е. Калинова. – София: Институт за изследване на интеграцията, – 2003. – с. 5

Avropa müsəlman cəmiyyəti daxilində adaptasiya problemlərinin özünəməxsus həlli axtarışları gedir ki, bunun da indiyədək ən aktual istiqamətlərindən biri Avro-İslamdır. Müsəlman hüququ, Avro-İslam tərəfdarlarının fikrinə görə, Avropa dəyərləri ilə birləşdirilməlidir. Məhz Avropada müsəlman hüququnda yeni cərəyan – "fiqhül-əqəliyyət", yəni "azlıq hüququ" meydana çıxmışdır. Bu, qeyri-müsəlman əhatəsində azlıq qismində yaşayan müsəlmanlar üçün xüsusi olaraq işlənib hazırlanmış dini-hüquq sistemi və ideologiyadır. XX əsrin ortalarında müsəlman ölkələrindən Avropaya insanların kütləvi miqrasiyası təkcə avropalılar üçün deyil, ilk növbədə müsəlmanların özləri üçün yeni reallıqlar yaratdı. Və əgər Böyük Britaniya kimi bəzi ölkələrdə hakimiyyət ənənəçiliyə kifayət qədər loyal yanaşırdısa da, digərlərində, məsələn, Fransada miqrantlardan liberal dəyərlərə uyğunlaşma tələb olunurdu.

Kompromislərə və uyğunlaşmaya məhz belə bir tələbat sonradan Avropa müsəlman intellektualları çevrələrində meydana çıxan "liberal İslam" və "Avropa İslamı" (əl-İslam-ül-Urubiyyə) kimi terminlərə zəmin yaratdı. Adətən bu iki termin arasında heç bir fərq qoyulmur, lakin qeyd etmək lazımdır ki, "Avro-İslam" sadəcə Avropa mənşəli "mötədil" müsəlman ideoloqlarının və ya Avropa müsəlmanlığı məsələsi ilə məşğul olanların fərqli baxış və ideyalarının ümumi adıdır və bu gün "Avro-İslam"a aid edilən heç də hər cərəyanı liberal adlandırmaq olmaz. Hətta kənardan Avro-İslam haqqında tamamilə fərqli qiymətləndirmələrə, o cümlədən Avro-İslamın avropalaşmış İslam deyil, radikal İslam olduğunu iddia edənlərə rast gəlmək mümkündür; sonunculara görə yeganə fərq odur ki, Avro-İslam müsəlmanları gettolarda qapanmağa deyil, Avropanı qəbul etməyə, Avropa təhsili almağa çağırmaqla, "Qərb sivilizasiyasının imkan və nailiyyətlərindən" özünün bu sivilizasiyanın dəyərlərinə zidd olan məqsədləri üçün istifadə etmək vəzifəsini yerinə yetirən istiqamətdir.[11] Bir qayda olaraq, bu cür tənqidin obyektinə Tariq Ramazanın fikirləri çevrilir. Dünyəvi cərəyanlardan fərqli olaraq, Tariq Ramazanın Avropa İslamı Cəmaləddin Əfqaninin və Məhəmməd əl-Əbdühün XIX əsr, eləcə də Nəsr Həmid Əbu Zeydin

[11] Лаумулин, М. Закат мультикультурализма. Наступает эра европейского ислама // – Алматы: Континент. – 2006, №5, – с. 14-17

XX əsr İslam modernizmi ənənələrini davam etdirən teoloji rasionalist cərəyandır.

Maraqlıdır ki, 1990-cı illərdə elmi dövriyyəyə daxil olmuş "Avro-İslam" termininin müəllifi Bassam Tibi də Tariq Ramazanın fikirlərini təxminən eyni tərzdə tənqid edir ki, bu da "liberal İslam" və "Avro-İslam" anlayışlarında yaranmış dolaşıqlığı səcciyyələndirir. Belə ki, liberalizmin özündə çox vaxt dünyəvilik insan hüquqlarının müdafiəsinin təminatı hesab edildiyindən, Avropa İslamının əsl liberal qanadına dünyəvi yönümlü Avropa müsəlmanlarının, yaxud da ən azından Bassam Tibi kimi şəriəti deyil, Avropa qanunlarını əsas götürən "avropalaşmış" intellektualların ideyaları aid edilməlidir.

Müasir liberal müsəlmanların tipik nümayəndələri sırasına onların ən böyük nümayəndəsi Bassam Tibi ilə yanaşı, Suriya əsilli Avropa siyasətçisi və Danimarka parlamentinin üzvü Xader Nasseri də aid etmək olar. 2001-ci ildən 2007-ci ilə qədər Xader Nasser Danimarka Sosial Liberal Partiyasının üzvü idi. O, 2006-cı ildə Məhəmməd peyğəmbərin karikaturalarını dərc etməklə tanınan "Jyllands-Posten" qəzetinin söz azadlığı mükafatına layiq görülmüşdür. Xader Nasser, sonradan "Demokratik Müsəlmanlar" adını almış "Mötədil Müsəlmanlar" partiyasının qurucusu və 2008-ci ildə mötədil müsəlmanları ruhlandırmaq üçün yaradılmış "İslamçılığın tənqidçiləri" assosiasiyasının həmtəsisçisidir. Xader Nasser Mühafizəkarların parlament qrupunun inteqrasiya təşəbbüsünün çərçivəsində pərəncənin tam yasaqlanması lehinə çıxış edərək, onu "qeyri-Danimarka" adəti və "qadınların əsarəti" adlandırır. [12]

Qərb İslamının formalaşmasına töhfə verən mühüm lokomotivlərdən biri də İslamın Qərbdə institutlaşmasıdır. İnstitusionallaşma prosesi son iki-üç onillikdə baş verməkdədir və Qərb müsəlmanlarının özlərinin Qərbdəki mövcudluq statusunu müvəqqəti deyil, daimi olaraq qavramağa başladıqları andan başlamışdır. İnstitusionallaşmaya müsəlman dini tikililərinin inşası, çoxsaylı müsəlman məktəblərinin (mədrəsələrinin) artması, halal qida şəbəkələrinin çoxalması, çiçəklənən Qərb islam KİV-ləri, müsəlmanların müxtəlif hakimiyyət səviyyələrində - həm əsas siyasi

[12] Khader, Naser. Modsætninger mødes. Discussions with the former Jewish rabbi Bent Melchior / N. Khader. – København: Forlaget Forum, – 2003. – 246 p.

partiyalarda, həm də "islami" adlanan partiyalarda artan siyasi təmsilçiliyi, müsəlman icmalarının Qərb cəmiyyətinin sosial və mədəni işlərində fəal iştirakı aiddir.

Qərb İslamının formalaşmasında digər mühüm amil Qərbin özündə islamı yeni qəbul etmiş müsəlmanların rolu, fəallığı və ideyalarıdır. Qeyd edilir ki, Qərb mentallığı əsasında tərbiyə almış neofitlər anadangəlmə müsəlman kimliyinə (identikliyinə) malik deyillər. Qərbə mühacirət etmiş müsəlmanlarla avropalı qeyri-müsəlmanlar arasında mədəni vasitəçi rolunu öz üzərinə götürməklə, bu qərbli yeni müsəlmanlar çox vaxt həm Qərbdəki qeyri-müsəlmanların, həm də mühacir mənşəli Qərb müsəlmanlarının şüurunda Qərb İslamı ideyasının qəbul edilməsinə yardım edirlər.

İkinci fəslin "**Avropada və Amerikada İslam intellektual fikrinin əsas nümayəndələrinin ideyalarının tarixi kontekstdə icmal təhlili**" adlı üçüncü paraqrafında Qərbdə islam islahatçılığının ən məşhur nümayəndələrinin islahat fəaliyyəti ətraflı təhlil edilmişdir. Biz belə bir müddəadan çıxış edirik ki, əgər keçmişdə islahatçı fəaliyyətin əsas hərəkətverici səbəbi Qərbə münasibətdə Şərqin inkişafını əngəlləyən amilləri aradan qaldırmaq canatımında idisə, bu gün postindustrial informasiya cəmiyyəti şəraitində, onu müşayiət edən qloballaşma və müsəlmanların Qərbə getdikcə artan miqrasiyası əsnasında Qərb-Şərq qarşıdurması anlayışının özü də tədricən aradan qalxır.

Bu paraqrafda müsəlman dünyasının ənənəvilik, fundamentalizm və modernizm kimi ictimai-mədəni hadisələri ətraflı nəzərdən keçirilmişdir. Ənənəçilər dünyanın iki "məkan"dan – "Dar ül-İslam" (İslam məkanı) və "Dar ül-Hərb" (hərbi məkan) ibarət ontoloji sxeminin binarlığını (ikililiyini) vurğulayırlar ki, burada yalnız İslam dünyası həqiqi kimi tanınır. Özü də arasıkəsilməz mübarizə gedişində "qeyri-müsəlman" məkanı tədricən "İslam" məkanına keçməlidir. Fundamentalistlərin təlimləri dinin ilkin əsaslarını üzə çıxarmaq və təsbit etmək üçün bütün tarixən formalaşmış dini ənənələrin tənqidi şəkildə yenidən mənalandırılmasına və yenidən tam nəzərdən keçirilməsinə yönəlmişdi. XIX əsrin ikinci yarısında panislamizm cərəyanı meydana gəldi. O, bütün müsəlmanların inteqrasiya olunmuş icmasının -

dövlətinin formalaşmasını nəzərdə tuturdu.[13]

Modernizm nümayəndələri (modernistlər) şəriət qanunlarını müasir dövrün tələbləri və dünyəvi qanunlarla bir arada tuturlar. Müsəlmanların qeyri-müsəlman ölkələrində artan varlığı bir qrup müsəlman alimini belə bir qənaətə gəlməyə sövq etdi ki, innovasiyalar və kompromislər yəhudi-xristian və ya dünyəvi ölkə kontekstində İslami həyat sürməyə çalışan müsəlmanlar üçün həlledici konsepsiyalardır. 1990-cı illərdə Misir əsilli amerikalı hüquqşünas Taha Cabir Əl-Əlvani və misirli ilahiyyatçı Yusuf Əl-Qərdavi tərəfindən "azlıqların fiqhi" adlanan müsəlman azlıqlar üçün modernist hüquqi doktrina irəli sürüldü. Bu doktrina müsəlman azlıqların, xüsusən də Qərbdə yaşayanların "*İslam ölkələrində yaşayan müsəlmanlardan fərqli olan özünəməxsus dini ehtiyaclarını ödəmək üçün xüsusi yeni hüquqi intizama layiq olmaları*" iddiasına əsaslanır.[14]

"Azlıq fiqhinin" əsas banisi kimi tanınan Əl-Əlvani qeyri-müsəlmanlarla münasibətlərdə Qurana istinadla dözümlülük və ədalət prinsipinin tanınmasını, sünnənin isə Qurandan müstəqil bir struktur kimi nəzərdən keçirilməsini təklif edir. Bu zaman sünnə özəl hallar üçün Quran müddəalarının sonrakı inkişafıdır. Əl-Əlvani istənilən halda məhkəmə instansiyası qismində prioritet kimi yuxarıda qeyd olunan humanist prisnsipin təsbit olunduğu Quranın tanınmasını zəruri hesab edirdi. [15]

Görkəmli Misir ilahiyyatçısı Əl-Qərdavi və onun ardıcılları hesab edirlər ki, müsəlmanlar orta əsrlərdə formalaşmış hüquq konsepsiyasından (fiqhdən) çıxış etməməli və onu əsla nəzərdə tutulmadıqları cəmiyyətlərə və durumlara tətbiq etməməlidirlər.

---

[13] Левин, З.И. Современный Ислам: реформаторы, обновленцы и охранители // Ближний Восток и Современность. Сборник научных статей, выпуск 17-й. – Москва: Институт изучения Израиля и Ближнего Востока, – 2003. – с. 35-42

[14] DinaTaha. Muslim Minorities in The West: Between Fiqh and Integration: [Electronic resource] / EJIMEL (Electronic Journal of Islamic and Middle Eastern Law). Vol. 1 (2013), 36 p. – November, 2021. URL: https://www.researchgate.net/publication/281757741_Muslim_Minorities_in_the_West_Between_Fiqh_of_Minorities_and_Integration

[15] Al-Alwani, Taha Jabir. Towards a Fiqh for Minorities / T.J. Al-Alwani. – London-Washington: The International Institute of Islamic Thouth, – 2013. –59 p.

Avropalı müsəlmanlara və qeyri-müsəlman ölkələrində yaşayan və orada azlıq təşkil edən müsəlmanlara münasibətdə Qərdavi müsəlmanın ümmətin bir hissəsi kimi kimliyi ilə onun mənsub olduğu cəmiyyətin vətəndaş kimliyi arasında tarazlığın olmasının vacibliyini vurğulayaraq, müsəlman ümmətinə mənsubluğu eyni zamanda başqa kimliklərə mənsubluğu istisna edən bir məfhum hesab etmir.[16]

İsveçrəli müsəlman ilahiyyatçısı Tariq Ramadan əl-Qərdavinin konsepsiyalarını müsəlmanın ərəb olmaq məcburiyyətində olmadığına, fundamental inanc məsələlərində güzəştə getmədən avropalı ola biləcəyinə dair ictimai-siyasi diskursla tamamlamışdı.[17]

Bu paraqrafda həmçinin qeyri-islam hökmranlığı və qeyri-müsəlman cəmiyyəti ilə qarşılıqlı əlaqə kontekstində azlıqların fiqhinin vəzifəsini İslam həyatını asanlaşdırmaq kimi nəzərdən keçirən tunisli alim Əbd əl-Məcid ən-Nəccarın, müsəlmanlarla qeyri-müsəlman cəmiyyəti arasında sağlam qarşılıqlı əlaqənin təməlinin yaradılması tərəfdarı olan mavritaniyalı ilahiyyatçı Abdullah bin Bayyahın, iranlı filosof və modernist islahatçı Əbdülkərim Süruşun və başqalarının baxışları da təhlil edilmişdir. Qeyd olunur ki, modernistlər nəinki müsəlman azlıqların liberal demokratik rejimlərə malik Qərb ölkələrində yaşamasını məqbul sayır, həm də onları "*islami kimliklərini və dini icma əlaqələrini gücləndirərək*", yaşadıqları ölkələrin fəal vətəndaşları olmağa və başqalarını öz düzgün, əxlaqi davranışlarının nümunəsi ilə öz dinlərinə gətirməyə çağırırlar.

İki paraqrafdan ibarət "**Müasir mərhələdə Avropada müsəlman əhalinin uyğunlaşması modelləri**" adlı **üçüncü fəsildə** müəllif əsasən XX əsrdə müsəlman dünyasında gedən inteqrasiya proseslərini tədqiq edir və "Şərq-Qərb" probleminin həlli axtarışları kontekstində Qərbdə İslam modernizminin səciyyəvi xüsusiyyətlərini aşkara çıxarır.

---

[16] DinaTaha. Muslim Minorities in The West: Between Fiqh and Integration: [Electronic resource] / EJIMEL (Electronic Journal of Islamic and Middle Eastern Law). Vol. 1 (2013), 36 p. – November, 2021. URL: https://www.researchgate.net/publication/281757741_Muslim_Minorities_in_the_West_Between_Fiqh_of_Minorities_and_Integration

[17] Ramadan, T. To be a European Muslim / T. Ramadan. – Leicester: The Islamic Foundation, – 2015. – 289 p.

“**XX əsrdə qloballaşma dövründə “İslam birliyi**” **anlayışı və “müsəlman dünyasında” inteqrasiya prosesləri**” adlı birinci paraqrafda “İslamın qloballaşması” termininin son onilliklərdə Qərb diskursunda getdikcə geniş yayıldığı qeyd olunur. XXI əsrdə miqrasiya proseslərinin intensivləşməsi nəticəsində İslam dini özünün çoxəsrlik formalaşmış yayılma arealından getdikcə daha da kənara çıxır. İslamın qloballaşma tarixinə nəzər salsaq, “qloballaşmış İslam”ın iki istiqamətini - radikal və mötədil cərəyanlarını (Müsəlman Qardaşlarından Avro-İslama qədər) qeyd etməliyik.

Mötədil İslam modernizminin birinci dalğasının uğuruna mane olan səbəb, Birinci Dünya müharibəsinin başa çatmasının ardından Antanta ölkələri arasında müsəlmanların yaşadıqları ərazilərin zorla bölüşdürülməsi (Mesopotamiyada, Fələstində və Transiordaniyada Britaniya mandatı, Suriyada və Livanda Fransa Mandatı) ilə başlanan müasir İslamın radikallaşması idi. Məhz Osmanlı imperiyasının dağılması ilə İslam aləmində yaranan boşluq sürətlə sələfi ideologiyası ilə doldurulmağa başlandı ki, onun da sivri ucunda “Müsəlman Qardaşları” təşkiltı fəaliyyət göstərirdi.

Zaman ötdükcə, 1950-60-cı illərdə “Müsəlman Qardaşları” təşkilatının çərçivəsində ayrıca bir radikal qrup meydana çıxdı ki, onun da əsas təmsilçisi 1966-cı il avqustun 29-da Misir məhkəməsinin hökmü ilə edam edilmiş Seyid Qütb idi. Qütbün son əsərlərində inkişaf etdirilmiş və bir müsəlmanların digərləri ilə savaşlarını ideoloji cəhətdən əsaslandıran “təkfirçilik” (müsəlmanları küfrdə ittiham etmək) konsepsiyası “Müsəlman Qardaşlar” hərəkatının liderləri, xüsusən də Məmun əl-Hudeybi, Ömər ət-Tilmisani, Mustafa Məşxur, Məhəmməd Mehdi Akif və başqaları arasında mənfi reaksiya doğurdu ki, bu da sözügedən təşkilatın mötədil və silahlı qanadları arasında qarşıdurmanın çıxış nöqtəsi rolunu oynadı. Tezliklə ciddi ideoloji ixtilaflar nəticəsində təkfirçilər daha çox “ət-Təkfir vəl-hicrət” adı ilə tanınan “Müsəlmanlar Cəmiyyəti” adlı müstəqil bir təşkilata çevrildilər. Beləliklə, söyləyə bilərik ki, “Müsəlman Qardaşları” cəmiyyətindəki parçalanma qlobalist beynəlxalq İslamın özündə yeni bir parçalanmanın başlanğıcı oldu; bunun da nəticəsində qlobalist İslam iki fərqli istiqamətdə, yəni bir tərəfdən “İslam modernizmi”, və digər tərəfdən “cihadçılıq” üzrə inkişaf etməyə başladı. Qərb

dövlətlərinin İslamın radikal qanadına münasibəti ikili idi. Qərb, xüsusən də ABŞ və İngiltərə, öz dəyişməz prinsipləri üzrə fəaliyyət göstərirdi: "Britaniyanın əbədi müttəfiqləri yoxdur, əbədi maraqları var".

Dissertasiyada pakistanlı vaiz və din xadimi Xurşid Əhmədin tərcümeyi-halının örnəyində əvvəlcə ABŞ və Böyük Britaniyanın nüfuz agentləri kimi çıxış edən, sonra isə Qərbin radikal əleyhdarlarına çevrilən bəzi islamçılarla baş verən metamorfoza da açılır[18].

Bəzi Avropa ölkələrinin, xüsusən də Fransa hökumətinin fəaliyyətinin təhlili belə qənaətə gəlməyə imkan verir ki, rəsmi, mötədil siyasi İslama yaradılan əngəllər onun mövqelərini xeyli zəiflədə, varlığını daha çox qeyri-leqal sürdürən radikal islamın mövqelərini isə gücləndirə bilər.

Qeyd olunur ki, istər bütövlükdə Avropada, istərsə də ayrıca Almaniyada müsəlman diasporlarının problemi ölkə mənşəyindən və etnik mənsubluğundan asılı olmayaraq, bütün müsəlman əhalisinin maraqlarına toxunan məsələlərdə ayrı-ayrı diasporlarla hökumət arasında vasitəçilik edəcək vahid təşkilatın olmamağındadır. Belə bir vəziyyətin səbəblərindən biri türk və kürd icmalarında olduğu kimi, diasporlar arasında etnik səciyyəli gərgin münasibətlərdir.

Bu fəslin "**Müasir mərhələdə Şərq-Qərb probleminin həlli yollarının axtarışı kontekstində modernizm Qərbdə İslamın səciyyəvi cəhəti kimi**" adlı ikinci paraqrafında Qərbdə müsəlmanların problemləri təfərrüatlı şəkildə tədqiq edilmişdir. Müsəlman icmalarının mövcud problemlərini əhəmiyyətli dərəcədə doğuran iki amil qeyd edilir. Bunlardan birincisi təhsil sahəsində gerilik, ikincisi isə müsəlman ölkələrinin həddindən artıq siyasi qeyri-sabitliyidir.

İkinci Dünya müharibəsinin başa çatması ilə müsəlman Şərqində müstəmləkəsizləşdirmə dövrü başlandı və dünya səhnəsində o qədər də mühüm rol oynamayan yeni müsəlman dövlətləri meydana gəldi. Hətta bir çox dövlətin ərazi sərhədləri hələ də onların əvvəlki müstəmləkə ağalarının ehtiyac və istəklərinə uyğun olaraq çəkilmişdir.

İranda Müsəddiq, Misirdə Nasir, İndoneziyada Sukarno və Pakistanda Zülfüqar Əli Bhutto kimi milli sosialist hökumətlər

---

[18] Khurshid, Ahmad. America and Unrest in the Muslim World / A. Khurshid. – Islamabad: Institute of Policy Studies, – 2002. – 308 p.

müstəqil siyasət yürütməyə çalışsalar da, Qərbin də müdaxiləsi ilə onların bu siyasətləri uğursuzluğa düçar oldu. Bu ölkələrdə hərbi-bürokratik və qəbilə-feodal elitalarının hakimiyyəti tam bərqərar oldu ki, bu da neofundamentalist hərəkatların yüksəlişi üçün münbit zəmin yaratdı.

Əminliklə söyləmək olar ki, bir çox ənənəvi müsəlman ölkələrində islamçı hərəkatlar sosializm ideologiyasından imtina olunduqdan, demokratikləşmə prosesi deyilənin baş verməsindən və bu prosesdə yaranan ideoloji boşluqdan sonra geniş yayılmışdır. 1980-ci illərin sonunda əvvəllər gerçəkləşdirilən "sosialist yönümlülüyü" doktrinasından imtina edən və çoxpartiyalı sistemin tətbiqi də daxil olmaqla bir sıra qanunlar qəbul edən Əlcəzair buna əyani nümunədir. Oxşar mənzərə bir çox postsovet ölkəsində və Rusiyanın ənənəvi müsəlman əhalisi olan regionlarında da müşahidə olunur.

Fransanın timsalında Avropa hökumətləri ilə müsəlman icmaları arasındakı münasibətlərin təfərrüatlı tədqiqi belə nəticəyə gəlməyə imkan verir ki, rəsmi hakimiyyət tərəfindən müsəlman icmasını, hətta onun nümayəndələrinin cəlb olunması ilə belə, "liberallaşdırmaq" cəhdləri çoxluğun müqaviməti ilə üzləşir.

Paraqrafda müsəlman feminizmi məsələləri də nəzərdən keçirilmişdir. Hazırkı müsəlman feministləri arasında çağdaş İslam feminizminin banisi və məşhur "Pərdənin arxasında" adlı feminist əsərin müəllifi kimi tanınan mərakeşli yazıçı və sosioloq Fatimə Mernisini (1940-2015), Corctaun universitetinin Müsəlman-xristian qarşılıqlı anlaşma Mərkəzindən (hal-hazırda – şahzadə Əlvalid bin Talal Müsəlman-xristian qarşılıqlı anlaşma Mərkəzi) Marqo Badranı, keçmişdə müxalifətçi Pakistan "The Muslim" qəzetinin redaktor müavini, 1982-ci ilə siyasi qaçqın statusu ilə ABŞ-a mühacirət etmiş Amerika mənşəli pakistanlı Əsma Barlası və başqalarını qeyd edə bilərik.

Dissertasiyanın **Nəticə** bölümündə tədqiqata yekun vurularaq, aşağıdakı qənaətlər xülasə olunur:

1. İslam modernizminin inkişaf mərhələləri. İslam modernizminin inkişaf tarixini iki mərhələyə bölmək lazımdır. Birinci mərhələ 19-cu əsrin sonu və 20-ci əsrin birinci yarısını, yəni müsəlmanların Avropaya kütləvi miqrasiyasının başlanılmasından

öncəki dönəmləri əhatə edir. Müasir islam modernizminin ilkin olaraq Qərbi Avropa tərəqqisi amilinin təsiri və təzyiqi altında meydana gələrək, inkişaf etməsinə baxmayaraq, onun yaranmasının ilkin mərhələlərində Əl-Əfqani kimi müsəlman modernist ideoloqlar tərəfindən mütərəqqi panislamist cəmiyyətinin müəyyən modeli nəzərdə tutulurdu. Belə bir cəmiyyət coğrafi baxımdan o zamanlar mövcud olan Osmanlı İmperiyasının himayəsi altında bulunan tarixi müsəlman Şərqini əhatə edən əraziləri əhatə etməli idi.

İkinci mərhələ 20-ci əsrin ikinci yarısınıdan bu günə qədər olan dövrü əhatə edir. XX əsrin 50-ci illərindən başlayaraq Avropada yaşayan müsəlmanların sayı ayrı-ayrı Qərbi Avropa ölkələrində təxminən əlli dəfə artmışdır. Bunun nəticəsidir ki, bu gün Avropanın inkişaf etmiş ölkələrində avropalı müsəlmanlar ayrıca siyasi qüvvəni təmsil edirlər, Qərblə Şərq arasında münasibətlərin ərazi sərhədləri isə tarixi müsəlman Şərqi ərazisindən birbaşa Avropa ərazisinə keçmişdir. Beləliklə, Avropa inkişafının multikultural modelinin bir hissəsi olduğu Qərb və xüsusən də Avropa liberalizmi yeni reallıqla bağlı suallarla üzləşmişdir. Multikultural modellə bağlı məsələlər müsəlmanlar qarşısında da dayanmaqdadır; onlar qeyri-müsəlman çoxluğun əhatəsində olan müsəlman azlıq tərəfindən dini adət-ənənələrin qorunub saxlanması, eləcə də Fransa örnəyində nəzərdən keçirildiyi kimi, din əleyhinə, dünyəvi yönümlü siyasət yürüən ölkələrdə dini hüquqların və adət-ənənələrin qorunması kimi problemlərlə üzləşməkdədirlər.

2. İslam modernist ideoloqlarının təsnifatı. İndiyədək İslam modernist mütəfəkkirlərinin təsnifatına zəif diqqət yetirilmişdir, bu səbəbdən də onların ənənəvi olaraq aid edildiyi hərəkatların mahiyyəti ilə bağlı dolaşıqlıq yaranmışdır. Bu, çox vaxt liberal İslam olaraq da adlandırılan "Avro-İslam" anlayışı nümunəsində də aydın görünür. Əslində, İslam ideoloqlarının heç də hamısı modernist deyildirlər; onların arasında ənənəçilər, eləcə də fundamentalistlər kifayət qədər əhəmiyyətli pay sahibidirlər.

Çox vaxt müsəlman modernistləri təsnif etmək üçün yeganə meyar onların dini mənsubiyyətidir. Bizə islam islahatçı ideoloqlarını ənənəçilərə və modernistlərə, modernistləri isə Tariq Ramazan kimi şəriətçilərə və Bassam Tibbi kimi dünyəvilərə bölmək daha

məqsədəuyğun görünür.

Eyni zamanda, biz islam modernizmi ideyalarının birbaşa ardıcılları olaraq müasir şəriət modernistlərinin hesab olunması qənaətindəyik; və artıq bu kontekstdə "liberal İslam"ın "Avro-İslam"ın sinonimi kimi deyil, dünyəvi qolu kimi nəzərdən keçirilməsini təklif edirik. "Avro-İslam" dedikdə isə müsəlmanlıq məsələlərini Qərb ölkələrində azlığın dini kimi nəzərdən keçirən İslam ideoloqlarının təlimlərini ehtimal edirik.

3. İslamın mötədil və radikal bölünməsinin tarixi icmalı. XX əsrdə qloballaşan siyasi İslam iki (hərbiləşdirilmiş-radikal və mötədil) istiqamətə bölünmüşdür. Radikal İslamın da öz növbəsində real və virtual olaraq iki kateqoriyaya bölünməsini təklif edərdik.

"Fələstin məsələsi" ətrafında müasir radikal İslamın formalaşmasının tarixi prosesi, "Müsəlman Qardaşları" təşkilatının özünün mötədil və radikal təkfirçi qanadlara bölünməsi, və nəhayət, Əfqanıstanda sovet hərbi kampaniyası əsnasında İslam cihadı ideyasının Qərb maliyyə institutları tərəfindən fəal şəkildə maliyyələşdirilməsi (bu da müəyyən təşkilatların timsalında gerçək radikal islamın formalaşmasının yekun mərhələsi oldu) araşdırılmışdır.

İkinci kateqoriya – virtual radikal İslam, Qərb mediası və çap nəşrləri tərəfindən Qərb cəmiyyətinin şüuruna yeridilən müsəlman dininin həddən artıq siyasiləşdirilməsinin, İslamın və ümumən müsəlmanların şeytanlaşdırılmış və insanlıqdan kənarlaşdırılmış obrazının nəticəsidir.

4. Avropanın İslama qarşı daxili siyasəti. Böyük Avropa ölkələrinin müsəlman azlıqlara qarşı dövlət siyasətinə və müsəlman azlığın dini hüquqlar uğrunda mübarizəsinə də diqqət yetirilir. 1980-ci illərin sonundan bəri bir-birini ardıcıl əvəz edən hökumətlərin müsəlman diasporunu dövlət nəzarəti altına almağa çalışdığı, Avropanın ən böyük müsəlman diasporuna malik ölkəsi olan Fransaya xüsusi diqqət verilir. Bundan əlavə, dissertasiyada müsəlman təşkilatları vasitəsilə müsəlman icmasının Fransada daxili siyasi mübarizəyə necə cəlb olunduğu göstərilmişdir.

5. "Sivilizasiyaların toqquşması"nın sonu və "sivilizasiya ilə anti-sivilizasiyanın", ənənəvi dinin sinkretik surroqatla toqquşmasının

başlanması. Bu apokaliptik qarşıdurmada bütün ənənəvi dinlər özlərini eyni düşərgədə tapırlar. Qloballaşma proseslərinin dövlətlərin və ənənəvi etno-dini muxtariyyətlərin sərhədlərini sildiyi bir vaxtda "sivilizasiyaların toqquşması" nəzəriyyəsi arxa plana keçir və ənənəvi etno-dini subyektlərin "vahid qlobal sivilizasiya" çərçivəsində yeri haqqında məsələ aktuallaşır.

Həmçinin çox vaxt "əks-mədəniyyətçi" (kontrkultur) adlandırılan, şəxsiyyətyönümlü dəyərlərə hədəflənmiş yeni qlobal, vahid kvazi-mədəniyyətin formalaşmasına yönəlmiş "New Age" ("Yeni əsr") kimi ənənəvilik əleyhdarı cərəyanları mahiyyətcə bir tək müsəlman dininə deyil, həm də xristian ənənəçiliyinə qarşı da çağırışdır. Odur ki, araşdırdığımız mövzu ilə əlaqədar təkcə islamda ayrı-ayrı modernist cərəyanlara və Qərbdə müsəlman kimliyi məsələsinə deyil, habelə istər müsəlman dünyasında, istərsə də ümumən götürdükdə modernizm və ənənəvilik arasında qarşıdurma tarixinə diqqət yetirilir. Deyilənlər bu gün təkcə müsəlman dininin deyil, ümumilikdə bütün ənənəvi dinlərin cəlb olunduğu qlobal prosesləri anlamaq baxımından aktuallıq kəsb edir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

Исламские ценности и европейское культурное пространство // – Bakı: Tarix və onun problemləri, – 2017, №1, – с. 180-186

Общественно политические взгляды исламских модернистов на Западе (вторая половина XX века – XXI век) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun Elmi əsərləri, – 2018, № 2(31), – с. 242-250

Рост миграции мусульман в европейские государства // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Sosial Elmlər, – 2019, № 2, – с. 133-140

История феминизма и мусульманский мир // Материалы международной научно-практической конференции «Диалог культур в глобализирующемся мире», – Кизляр: ДГУ, Махачкала: АЛЕФ, – 2020. – с. 171-175

Формирование мусульманских общин в Западной Европе и модели адаптации // Ümummilli lider H.Ə. Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi” mövzusunda multidissiplinar respublika elmi-praktik konfransı, – Bakı: Qərbi Kaspi Universiteti, – 1 may, – 2021, – s. 52-56

Модернистские движения в исламе. Исторический обзор. XIX век // – Одесса: Політикус. Науковий журнал, – 2022, Випуск 1, – с. 152-157

Islamophobic trends in the modern liberal world (example of France) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Sosial Elmlər, – 2023, № 1, – p. 131-137

Islamophobic trends in the modern liberal world (example of France) // The International Conference on islamophobia as a specific form of racism and discrimination: new global and transnational challenges, – Baku: – 15-16 March, – 2023, – p. 99-106

Обзор истории исламской политической мысли // “Ziya Bünyadov: müharibə və elm cəbhəsinin qəhrəmanı” adlı Respublika Elmi Konfransının tezisləri, – Bakı: 13 dekabr – 2023, – s. 4

Dissertasiyanın müdafiəsi 21 fevral 2024-cü il tarixdə saat 11:00 Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1148, Bakı, Zahid Xəlilov küçəsi, 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyası Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 18.01.2024 il tarixində zəruri ünvanlara göndərilmişdir

Çapa imzalanıb:
Kağız formatı: A5
Həcm:
Tiraj: 30 nüsxə